# Əjdər Olun “Tütün limanı”



■ İmdad Avşar

**Əjdər Ol 1980-ci illərin sonlarından etibarən tarixin tozlu səhifələrinə qarışmağa başlayan SSRİ-nin süqutuna və müstəqil Azərbaycanın gənclik illərinə şahidlik etmiş, keçid dövrünü hərtərəfli izləyərək gördüklərini bədii əsərlərində məharətlə qələmə almışdır. Bu səbəblə sözügedən illər Əjdər Ol hekayələrinin ana xəttini təşkil eləyir.**

Əjdər Ol eyni zamanda Azərbaycanın keçid dövründə yaşadığı ağrılı sosial hadisələri, siyasi və iqtisadi dəyişiklikləri və bu dəyişiklik dalğasının vurub sahilə çıxardığı kütlənin psixoloji sarsıntıları ədəbiyyat vasitəsi ilə tarixə çevirmişdir.

Müəllifin bu kitabda toplanan əsərləri məlum zaman daxilində yazıçının şəxsən gördüyü gerçək hadisələrdən və insanlardan ilhamlanaraq yazılan hekayələr və ”Keçid dövrün”ün tar-mar elədiyi, yeni dövr ilə barışmayan yazıçı, şair və sənətkarların ədəbi portretlərindən ibarətdir. Buna görə hekayələr haqqında bəhs olunan cəmiyyəti siyasi, sosial və psixoloji cəhətdən təhlil etmək üçün əlverişli materialdır. Bu kitabda toplanan hekayələr son iyirmi beş ildə qardaş Azərbaycanda meydana gələn hadisələri yaxından izləyən oxucular üçün həm tanışdır, həm də həqiqi detallarla zəngindir.

Əjdər Ol insan sərrafıdır. O, istər adi, istərsə də yaradıcı insanın psixoloji dərinliyinə enə və onu ən dərin qatlarınacan tanıyıb, istedadla ifadə edə bilir. Şübhəsiz, insanı böyük yazıçı edən şey Tanrıdan gələn fitri istedaddır. Əjdər Ol hekayələrindəki xarakterlərin, tiplərin şəklini sözlərlə çəkir, bütün canlılığı, rəngarəngliyi ilə onları rəsm edir. Beləliklə, bu canlı rəsmlərdəki tiplər, xarakterlər, obrazlar oxucunun gözü önündə gəzişməyə başlayır. Bunlar o qədər canlı, o qədər təsirlidir ki, oxucu hətta əsəri oxuyub bitirdikdən sonra belə təsirindən uzun müddət çıxa bilmir. Bu, şübhəsiz, Əjdər Olun ədəbi qüdrətindən xəbər verir. O, insanı şüuraltısı ilə birlikdə qavrayır.

Əjdər Ol təhkiyəsinin əsas cəhətlərindən biri də, heç şübhəsiz, yumordur. Hadisələrin son dərəcə dramatik inkişaf etdiyi hekayələrdə belə bəzən oxucunu güldürən yumor detalları gözə çarpsa da, mətn faciyəvi bir atmosferlə bitir. ”Eynək”, ”Börüsoy”, ”Qəzənfər rəisin Şuşa səfəri”, ”Qədir ustanın halları” hekayələri bu qəbildəndir. Yazıçı Cəlil Məmmədquluzadədən və Mirzə Ələkbər Sabirdən bu günümüzəcən gələn yumor ənənəsindən öz payını almışdır. Onun ”Canlı lətifələr, əhvalatlar, deyimlər” adlı kitabını Türkiyə türkcəsinə uyğunlaşdırmışıq. Azərbaycanlı yazıçı, şair və sənətkarların həyatlarındakı yumoristik anlarından bəhs edən və Azərbaycan ədəbiyyat tarixi üçün ciddi bir mənbə olan bu kitab müəllifin yaradıcılığındakı yumor arealını daha da genişləndirir.

Yazıçılar cəmiyyətin yaddaşında yazdıqları, yaratdıqları ilə qalırlar. Gələcək nəsil onları bu əsərlərlə tanıyır, xatırlayır. Əjdər Ol portret hekayələrində qələm aldığı yazıçı və şairləri istedadları, uğurları, üstün tərəfləri, zəiflikləri, düşkünlükləri, acizlikləri ilə bir ”insan” kimi təsvir etmişdir və heç şübhəsiz, haqqında danışdığımız yazıçı və şairlər yalnız öz əsərləri ilə deyil həm də Əjdər Olun ”portret” hekayələrindəki obrazları ilə ədəbiyyat tarixində maraqlı şəxsiyyət kimi yaşayacaqlar. Kitabda yer alan rabağ müharibəsi və xüsusən, müharibənin dramatik tərəfləridir.

Əjdər Olun son dərəcə gerçək, səmimi və real həyat hadisələrini, şəxsiyyətləri qələmə aldığı hekayələrini oxuyarkən yuxarıda bəhs etdiyimiz tarixi dövrlərə, bu ddönəmdə yaşanılan faciələrə sanki yuxarıdan, geniş bir pəncərədən baxırıq. Bu əsərlərlə Keçid dövründəki Azərbaycan cəmiyyətinin tarixi, sosioloji, psixoloji cəhətdən təhlilini eləmək mümkündür. Tarixi dövrün gətirib çıxardığı qaranlıq, qarmaqarışıq hadisələrin önündə Əjdər Olun yaratdığı səhnə dayanır və bu səhnədə bəzən dramatik, bəzən tragik, bəzən də yumoristik üslubla



soy”, ”Eynək” adlı hekayələrində isə yetmiş illik Sovet sisteminin çöküşündən sonra yeni quruluşda yaşamağa çalışan insanların qəribəliklərindən danışır. Əjdər Ol bu hekayələr ilə aid olduğu cəmiyyəti, insanları və insanların yaşadığı problemləri yazıçı həssaslığı və məsuliyyəti ilə ədəbiyyata çevirib gələcək nəsillərə təqdim edib.

O, futurist mətnlərdə də ma-

”Eynək”, ”Namiq Abdullayevin sonu”, ”Qrafoman” kimi hekayələr bu qəbildəndir.




Onun dilə bu qədər hakim olmağı, təsirli ifadə etmə bacarığı, fərqli bir üslub ilə oxucunu mətnin atmosferinə salmağı şair kimliyindən xəbər verir. Təcrübə göstərir ki, nəsrdən şeirə keçən müəlliflər uğursuz, şeirdən nəsrə keçənlərsə çox zaman uğurlu qələm adamları. Əjdər Ol Azərbaycan şeirində öz sözünü demiş şairdir. Dolayısı yolla onun nəsrdəki uğurunu usta bir şair olaraq daha üst qatı hesab olanın şeirdəki uğuru ilə əlaqələndirmək mümkündür.

Qardaş Azərbaycan xalqının XXI yüzilliyin sonunda yaşadığı iki böyük sarsıntı var. Bunlardan biri azadlığa aparan yolda yaşadıqları ”20 Yanvar” hadisələri, digəri isə azadlıqdan sonra başlayan, sonrakı illərdə genişlənib Azərbaycan xalqına ciddi təsir edən və təsirləri hələ də davam edən Qarabağ müharibəsi.

Bunlardan birincisi azadlığa aparan yolda qələbə ilə, ikincisi isə vətən torpaqlarının işğalı, minlərlə şəhid, yüz minlərlə qarabağlının ata-baba torpaqlarından sürgün olunmağı ilə nəticələnmişdir. Şübhəsiz, təhdidlər, ağır məğlubiyyətlər, faciələr millətlərin ruhunda qələbədən daha dərin izlər qoyur. Dastanlarımızın qaynağının, adətən, millət olaraq yaşadığımız faciələr olmağının səbəbi budur. Buna görə də son illərdə Azərbaycan ədəbiyyatına yön verən istər usta qələm adamları, istərsə də gənc yazarların əsərlərində ən çox müraciət olunan mövzulardan biri azadlıq mübarizəsi, Qa-

ifadə olunan Azərbaycan insanı (insanları) var.

Kitabda yer alan ”Qəzənfər müəllimgilin Şuşa səfəri”, ”Komandirin meymunu”, ”Şikayətçi”, ”Qədir ustanın halları 1”, ”Börüsoy”, ”Eynək”, ”Fah”, ”Tütün limanı” kimi hekayələr, əsasən, 25 il öncə Azərbaycanda yaşanılan fəlakətlərə, sosial deformasiyanın yaratdığı milli qarşıdurmalara ədəbiyyat cəbhəsindən tutulan aynadır.

Müəllifin ”Komandirin meymunu” adlı əsərində müharibənin pərdə arxasında baş verən hadisələri xırdalayır. ”Qəzənfər müəllimgilin Şuşa səfəri”, ”Şikayətçi” adlı hekayələrində isə müharibə fiziki dünyada yox, mənəvi dünyada irəliləyir, hekayələrdə müharibənin əks sədası eşidilir. ”Qədir ustanın halları 1” ”Qədir ustanın halları 2” ”Börü-

hirdir. Yazıçı ”Şər Nizi” və ”Qatil ilə görüş” adlı hekayələrində yaratdığı tiplər ilə ”Eynək”, ”Namiq Abdullayevin axırı”, ”Ölümlə oyun” və ”Börüsoy” adlı hekayələrindəki şəxsiyyətləri dəyişən şərtlər və sosial qəliblər içində insan psixologiyasının dərinliklərinə enərək fərqli formada yazıb.

Əjdər Ol hekayələri dil və üslub cəhətdən də çox uğurludur. Buna görə Azərbaycan ədəbi tənqidi onun haqqında deyir: ”Ənənəvi qəliblərlə birlikdə, çağdaş, dinamik Azərbaycan türkcəsini əsas götürür”. Əjdər Ol 2010-cu ilin may ayında təşkil olunan və Azərbaycan ədəbi mühitində diqqətlə qarşılanan Milli kitab mükafatı və II Beynəlxalq ”Mahmud Kaşğari” hekayə müsabiqəsində birinci yerə layiq görülmüşdür. Bu mənada onun təhkiyəsi, dili və üslubu haqqında söylədiklərimizdə, heç şübhəsiz, həqiqət payı vardır.

Son 25 ildə iqtisadi sahədə sosializmdən kapitalizmə keçən, siyasi sahədə isə SSRİ-dən qopub müstəqil bir ölkə olan Azərbaycanda ağrılı metamarfoz dövrünü, bu dövrdəki Qarabağ müharibəsindən keçən, aid olduğu cəmiyyəti və insanları son dərəcə dərindən təhlil edən, əsərlərində sosial problemləri uğurlu bir formada dilə gətirən Əjdər Ol Türkiyədə nəşr olunan sayca dördüncü kitabının bəyəniləcəyinə inanır, kitabın nəşrində əməyi keçən hər şeyə təşəkkür edirəm.

**Türkiyə türkcəsindən uyğunlaşdıran: Orxan Həsəni**